

# Barat VÜSAL

## AĞILSIZ AĞIL

Dəli olub mən düşdüm ki, çöllərə,
Bir azca bəşəri ağıllandırım.
Saralıb sönürsə o boyda günəş,
Alışan məşəli ağıllandırım.

Ağılsız ağılın heyranı oldum,
İnanmayıb oldum, inanıb oldum.
Bu qədər anladım... anlatdım, dedim,
Anlamaz kəsləri ağıllandırım.

Bilirəm kim pisdi, yaxşı kim, ağıl,
Heç vaxt ola bilməz daşıb kin, ağıl.
Bir az ağlın qalıb yaxşı ki, ağıl,
Qoy səndən betəri ağıllandırım.

Bu qədər iş açma gəl başa, zalım,
Qulaq as bu dəli külbaşa, zalım!
Ağıl nə deməkdi, gəl, başa salım,
Səni də mən dəli ağıllandırım.

Ağıl başdan xarab-əlil olmasın,
Lağ yeri olmasın, zəlil olmasın.
İstədim mənimtək dəli olmasın,
Bu mənə bənzəri ağıllandırım,
O sənə bənzəri ağıllandırım!

## QAZANC

Öz süfrəmdi bu süfrə,
Bu tam mənim, dad mənim.
Dönməz əqidə, vüqar,
Sönməz ocaq-od mənim.

Ta dərdimin dərdi yox,
Gözlərimdə örtü yox!
Mənə görə fərqi yox,
Doğma mənim, yad mənim!

Butamdı əllərim də,
Utan di, əllərimdən!
Tutanda əllərimdən,
Tutdu istedad mənim!

Müqəddəsdir hər anım,
Yaratmaqdır məramım.
Məndən ötrü yaranıb,
Zaman mənim, vaxt mənim!

Ölsəm də, qorxummu var?
Barat daima yaşar.
Qurşar, belimi qurşar,
Qazandığım ad mənim!

## MURDARLIQ

Gedək bu dünyaya təzədən gələk,
Bəlkə başqa şeymiş atam, yaranmaq?!
Yaranmaq gərəkmiş insan oğlutək,
Bəlkə bu deyilmiş adam yaranmaq?!

Hansı murdarlıqlar olmur dünyada,
Eh... o da olurmuş, bu da olurmuş.
Adam murdarlığı sevməyirsə də,
Bəs niyə yıxılıb murdar olurmuş?!

Hərdən utanıram özüm-özümdən,
Mən bir murdarlığı niyə gizlədim?
Ay Allah, bir murdar sözün üzündən
Murdarlanır neçə sözün üzləri...

Hardadı, axtaraq harda, gözəli,
Hə olur bu yurdun birdən, oğluna?!
Bu xalqın gör neçə miqdar gözəli,
Gedib qismət olur murdar oğluna!

Allaha getməyə bir yol görünmür,
Azmışmı cığırın, yolun murdarı?
Şeytan qapısına aparır bizi,
Bu murdar cığırın, yolun miqdarı!

Qoymaq istəmirsən vergülü sənmi,
Bu cümlə-ömürə, Ömür-cümləyə.
Sənə ayıb olsun... mənə hayıflar!
Mənə dedilər ki, vergilisənmiş,
Səni istəməyib murdarlayıblar!

Görən nə olacaq işin axırı?
O, murdar edilir, Bu, murdarlanıb.
Allah, bundan böyük murdarlıq olmaz,
Hava murdarlanıb, su murdarlanıb!

Gizlədə bilmərəm yox, murdarlığı,
Mənmi o murdaram... Murdarmı mənəm?!
Bəlkə bildiyimçün çox murdarlığı,
Dünyanın ən böyük murdarı mənəm?!

Varmı murdarlığı olmayan bir kəs,
Bu, bir etirafdır... hər nəfər demir.
Bəlkə yusun deyə son murdarlığı,
Suya çəkmək istər ağ kəfən səni,
Suya çəkmək istər ağ kəfən məni?!

Görür... məsuliyyət daşıyıram ki,
O murdar ocağı, murdar tüstünü...
Mən də bu dünyada yaşayıram ki?
Elə bil, basırıb o murdar kəsi,
Elə bil, örtürəm murdar üstümü?!



Kredo 2019.- 27 mar.- S.11.